

***KAMÇIBEK UZAQBƏYOĞLU***
(КАМЧЫБЕК УЗАКБАЙ УУЛУ) –

*10 dekabr 1996-cı ildə Oş bölgəsi, Özgön elinin Janı Ayıl kəndində doğulub. 2014-cü ildə həmin kənddə M.Joldoşaliyeva ad. 78 saylı orta məktəbi bitirib. 2015-ci ildə Oş Texnologiya Universitetinin Arxitektura və inşaat fakultəsinə daxil olub. Ali Məktəb tələbələri arasında keçirilən Çingiz Aytmatovun 90 illiyinə həsr olunmuş "Gənc şair - 2018" yarışmasının qalibidir. Hazırda ali təhsilini davam etdirir. "Jiqer" Yaradıcı Gənclər Mərkəzinin başqanıdır.*

## *XOŞBƏXT OL*

"Əlvida!" söyləyib uçdun uzağa,
Mənim əsir düşən səadətimsən.
Alovlar qoynunda xoşbəxt olacam,
Adı var, özü yox, sədaqətindən...

Həyatda hamımı vurula bilər?..
Özünü nə qına, nə göz yaşı tök.
Səndən uzaqlarda xoşbəxtəm demə,
Demə ki, peşmansan... ört, üstünü ört...

Sənin xoşbəxtliyin əlçatmazlıqdı,
Barış taleyinlə, özgə yolmu var?
Mən elə xoşbəxtəm həsrətinlə də,
Sənin astananda tutmuşam qərar...

Birlikdə az olduq, neynək, incimə,
Sənin taleyinə buraxaq bunu...
Özgə ocağında gəlinsən indi,
Ta sev, bir yastığa baş qoyduğunu...

Nə qəzəblən, nə də peşiman olma,
Özünü itirmə bu həyatda, sən.
Harda səadəti tapmısan orda,
Xoşbəxt ol, istəyim bir budu, bilsən…

## *BİZİM AİLƏ*

Anam, atam, bir də doğmalarımız,
Hərə bir tərəfdə... nəsə çatışmır.
Eyni məhrəbaya əlimiz dəymir,
Eyni süfrə bizi şama çağırmır.

Biri təhsil, biri iş arzusuyla
Tərk etdik nə vaxtdı doğma ocağı.
Xeyir-dua verdi ata-anamız,
Qoyub gəldik gözəl bağçanı-bağı.

Həyətə örüşdən dönən mal-qara,
Baxışır gözləri yol çəkən kimi...
Nə bilim... bəlkə də, düşünürlər ki,
Hardasa ev-eşik olmağa getdik...

Köçəri quşlartək uçub dağıldıq,
Oşa, Moskvaya, kəndə, uzağa...
İndi burnumuzun ucu göynəyir,
Biz ki döşənərdik eyni yatağa...

Atamız, anamız, doğmamız kimi,
Kim sevər, kim sevər söyləynən bizi?
Biz harda olsaq da yenə gözümüz
Ordadı. Nə verər onun yerini?!.

(Çevirən: **İbrahim İLYASLI)**